*İlk cəsarətli addım atıb Şərqdə birinci dəfə olaraq dahi Məhəmməd Füzulinin ölməz "Leyli və Məcnun" poeması əsasında muğam-opera yaradan Üzeyir Hacıbəyov elə bu mərhələdəcə milli və ümumbəşər ünsürləri birləşdirdi.*

*Şərq aləminin ən böyük, ən uca məhəbbət dastanının özü belə XX əsr üçün aktual olan ümumbəşər ictimai problemlər qaldırırdı. Füzuli şerinin muğam sənətilə uzlaşdırılması, şairin fəlsəfi dünyasının açılmasına, sözün qüdrətinin tamaşaçıya, dinləyiciyə çatdırılmasına xidmət edirdi. Çünki musiqi janrlarımızın şahı, xalqımızın ən çox sevdiyi muğam və yalnız muğam sözün dolğun səslənməsi, dərk edilməsi üçün bədii şərait yaratmağa qadirdir.*

Muğamın klassik opera forma və janrları ilə qarşılaşdırılması, milli çalğı alətlərimizin ümumbəşər musiqi alətlərilə bir orkestrdə iştirak etməsi, tar, kaman, xanəndə triosunun, orkestr, xorla birləşdirilməsi müxtəlif mədəniyyətlərin, dövrlərin məhsulu olan forma, janr, ifadə tərzlərinin sintezini yaratdı.

Klassik opera dramaturgiyası ideyalarını təcəssüm etdirən, simfonik müqəddəmə proloq səciyyəli xorla başlanan, sonra da ariyalarda, reçitativlərdə, xor və ansambl nömrələrində səhnə-səhnə inkişaf edən çoxhissəli sintetik janr, Üzeyir yaradıcılığında milli təzahür formasını tapdı. Muğam operası janrının formalaşmasında dəstgahın dramaturgiyası, inkişaf prinsipləri, quruluşu həlledici rol oynadı.

İlk "Leyli və Məcnun" muğam operasının müqəddəməsi, əsərin başlıca ideyasını ifadə edən, epiqraf mahiyyəti daşıyan "Şəbi-hicran" xoru tamaşanın məntiqi davamı kimi təsir bağışlayırdı. Bu bölüm istər quruluşca, istərsə də dramaturji yükü etibarilə dəstgahın dəramədini xatırlatdı. (Azərbaycanın klassik xanəndəsi Seyid Şuşinski "Mahur" dəstgahında "Şəbi-hicran" xorunun sözləri və musiqisini olduğu kimi dəraməd əvəzi "Mahur" təsnifi adlandırıb, ifa edir. Bundan əlavə sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabov "Азербайджанские теснифы" kitabında (bax: Советский композитор, 1983 с. 268) "Mahur" təsnifi"ni həmin ifadan nota salmışdır.

Giriş mərhələsi tamamlanandan sonra sazəndələr duetitar, kaman yenə dəstgahın formasını saxlayaraq "Mahurhindi" bərdaştı çalır. Əgər opera səhnələrinin dramaturji inkişafını izləsək görərik ki, onun da əsasını təzad prinsipi improvizasiyalı epizodlarla metroritmik cəhətdən nizamlanmış hissələrin ardıcıllaşması təşkil edir. Məsələn, qəhrəmanların obrazlarının ilkin şərhində - ekspozisiyasında kiçik monoloqlarda, dialoqdakı muğam improvizasiyalarının təsnifəbənzər unison şəkilli duetlə nəticələnməsi (Ah eylədiyim sərvi xuramanım üçündür) muğam şöbəsilə təsnif ardıcıllığı təsiri bağışlayır. (Leyli və Məcnun duetinin segah köklü olması, bir növ, növbəti xor səhnəsini, lad nöqteyi-nəzərindən hazırlayır. Xorun melodik materialını "Evləri var xanaxana" xalq mahnısı təşkil edir.)





# Üzeyir Hacıbəyov və xalq musiqisi

"Leyli və Məcnun" operasının tarixi əhəmiyyəti təkcə bu janrın ilk klassik nümunəsi olmaqla bitmir. Burada milli simfonik və xor musiqilərinin, xoreoqrafiyanın da rüşeymləri özünü büruzə verir. Xorlarda təzahür tapmış xalq mahnıları, hələ ayrı-ayrı dillərdə danışan tarla skripka burada sadəcə olaraq qarşı-qarşıya qoyulur.

"Leyli və Məcnun"dan "Koroğlu"ya qədər məqaləsində Ü. Hacıbəyov yazırdı: "Leyli və Məcnun"un partiturası yox idi. Bunu hadisələrin və lokal nömrələrin ardıcılını göstərən "direksion" əvəz edirdi. Nota ancaq orkestr musiqisi və xor üçün mahnılarından götürülmüş melodiya materialı salınmışdı". (Ü.Hacıbəyov "Leyli və Məcnundan Koroğluya qədər". Əsərləri II cild. Bakı, AEA Nəşriyyatı, 1965, s. 275.

Beləliklə, o zaman hələ temperasiya problemlərini qarşıya qoyub həll etmək əzmində olmasa da bəstəkar artıq xalq mahnı nümunələrini not sisteminə salmaq sahəsində fəaliyyətə başlamışdı.

Xalq musiqi nümunələrinin mükəmməl temperasiya kökündə nota salınıb işlənilməsi sahəsində əldə edilmiş mühüm nailiyyətlərdən biri Üzeyir Hacıbəyovun Müslüm Maqomayevlə birgə qələmə aldığı "Azərbaycan türk el nəğmələri" məcmuəsidir. Məcmuədə nota salınmış 33 xalq mahnısı arasında "Üç telli durna", "Küçələrə su səpmişəm", "Gözəlim sənsən", "Qalada yatmış idim", "Əlində sazın qurbanı", "Həştərxan", "Bağçadan gələn səs", "Qalalıyam", "Dağlarda çiçək", "Saçın ucun hörməzlər", "Sarı gəlin" kimi el havaları, hal-hazırda olduqca populyardır. Bu nəğmələr müğənnilərimizin repertuarında geniş yer tutmaqla yanaşı müxtəlif heyətlər üçün işlənib, bəstəkarların əsərlərində istifadə edilib.

Üzeyir Hacıbəyovu, bir zamanlar Qara Qarayevin söylədiyi kimi, XX əsr Azərbaycan musiqisinin patriarxı adlandırmağımız təsadüfi deyil. Musiqimizin elə bir janrı, elə bir sahəsi yoxdur ki, Ü. Hacıbəyov bu sahədə sözünü deməmiş olsun. (Ü. Hacıbəyov bir sıra musiqi janrlarında-balet janrında, simfonik musiqi janrlarında müstəqil əsərlər bəstələməsə də "Koroğlu" operasının üvertürası, III pərdəyə giriş, "Koroğlu", "Leyli və Məcnun" operalarındakı simfonik rəqslər musiqi mədəniyyətimizin əlçatmaz zirvələridir.) Onun dediyi söz ilk söz olub tezliklə klassik nümunəyə çevrilib.

Ü. Hacıbəyov xalq nümunələrinin və ələlxüsus şifahi ənənəli professional musiqi janrlarının - muğamların bəstəkar yaradıcılığına daxil olması, eyni zamanda, bəstəkar yaradıcılığının xalq qaynaqlarından qidalanması, muğam kökünə, aşıq sənətinə istinad etməsi misli görünməmiş nailiyyətdir. Məhz bu dahiyanə uzaqgörən addımdan sonra Azərbaycan musiqisi ümumbəşər musiqi sənətinin magistral yoluna qədəm qoydu.

Şərqdə notla çalan ilk xalq çalğı alətləri orkestrinin repertuarında ilk, əhəmiyyətli əsərlər böyük bəstəkarın "Çahargah" və "Şur" fantaziyaları oldu. Bu adların hər birində iki musiqi mədəniyyətinin qarşılaşması özünü aydın surətdə büruzə verir. Hətta belə bir fərziyyə vardır ki, "Çahargah" və "Şur" fantaziyalarında Üzeyir bəy V.A.Motsartın on beş saylı Do major sonatasının ritmik quruluşundan istifadə edib. Əlbəttə, bu fərziyyənin həqiqətə uyğunluğunu isbat etmək o qədər də çətin deyil. Sadəcə, hər iki əsəri tutuşdurmaq nəticəsində fikrin doğruluğunu sübuta yetirmək olar. Lakin bu barədə Üzeyir bəyin mətbu fikrinə rast gəlmədiyimiz üçün onu fərziyyə kimi də qəbul edirik. (İ.Abezqauzun "Опера Кероглы Узеира Гаджибекова" kitabında qeyd edilir ki, əsərin yetkin sonata formalarından əvvəl 30-cu illərdə xalq çalğı alətləri orkestri üçün yazılmış "Şur" və "Çahargah" fantaziyalarının quruluşu Motsartın f-no üçün Do major sonatasından götürülüb. M., Советский композитор, 1987.s.151-ə bax. Sənətşünaslıq doktoru B.Məmmədova və sənətşünaslıq namizədi Y.İmanova dissertasiyalarında Ü. Hacıbəyovun Motsart sonatasının mətn quruluşundan istifadə edib, "Şur" və "Çahargah" ladlarına çevirdiyini qeyd edirlər. Bax: Р.Мамедова. Роль мугамной ладоинтонационной основы в возникновении сонатной формы в творчестве У.Гаджибекова. Автореферат дис.канд.иск. Тбилиси, 1981.с.21. У.Иманова. Классицизм XX века и музыка К.Караева. Автореферат дис.канд.иск. Ташкент, 1990.)

"Çahargah" və "Şur" fantaziyaları bəstəkarlarımız üçün qiymətli örnək oldu. Orkestrin ilk bədii rəhbəri Ü.Hacıbəyovun, onun layiqli davamçısı Səid Rüstəmovun çalışdığı dövrdə kollektivin repertuarı çoxlu milli musiqi nümunələri, Azərbaycan bəstəkarlarının orijinal əsərlərilə zənginləşdi.

Bərabər temperasiya sistemi orkestri dünya klassiklərinin incilərini də ifa etmək imkanı verdi.

Onu da qeyd edək ki, orkestri təşkil edən xalq çalğı alətləri tədricən musiqi tədrisinin bütün pillələrinə daxil olundu. Xalq çalğı alətlərimizin tədrisində də muğam, xalq musiqi nümunələrilə yanaşı Azərbaycan bəstəkarlarının orijinal əsərləri, eləcə də dünya klassikasının misilsiz inciləri istifadə edildi.

Yuxarıda qeyd etdik ki, respublikamızın ilk musiqi kollektivlərindən biri və birincisi - xor kollektivi olub. Ümumiyyətlə, xor sənəti, peşəkar bəstəkar yaradıcılığının digər sahələri kimi, opera səhnəsində doğulub. Nümunə üçün opera musiqimizin ən qədim və uzun ömürlü nümunəsinə - "Leyli və Məcnun" operasına müraciət edək. "Evləri var xana-xana", "Axşam oldu", "Bu gələn yara bənzər" elin dilindən düşməyən bu xalq mahnılarının melodiyaları operanın xor səhnələrinin musiqi materialını təşkil etdi. Son iki mahnının olduğu kimi səslənməsi isə əsərdə mühüm dramaturji əhəmiyyət kəsb etdi.

Xalq mahnılarına digər muğam operalarında, eləcə də musiqili komediyalarda geniş yer verilirdi. Lakin Ü.Hacıbəyovu xalq mahnılarımızın çoxsəsli oxunması özünə cəzb edirdi. "İlk Azərbaycan xalq xoru" məqaləsində Ü.Hacıbəyov yazırdı: "Azərbaycan inqilabdan əvvəlki incəsənəti tarixində vokal ifaçılığın çoxsəsli xor kimi geniş yayılmış bir forması olmamışdır. Ancaq nadir hallarda, əsasən kəndlərdə (məsələn, keçmiş Şuşa qəzasında) toy zamanı gəlini və ya bəyi tərif edən mahnıların birgə oxunmasına yol verilmişdir. Lakin belə hallarda da xorun iştirakçıları bir səslə, yəni unison oxumuşlar. Azərbaycanın indiki Lənkəran ərazisində yaşayan talışlar xorla oxuma formasını bir qədər dəyişib təkmilləşdirmişlər. Onlar xoru iki dəstəyə bölmüşlər; birinci dəstə melodiyanı oxuyub qurtararkən ikinci dəstə oxumağa başlamış və melodiyanı eyni tonda təkrar etmişdir". (Ü.Hacıbəyov. Əsərləri, II cild, s.268.)

Çoxsəsli xor üçün repertuarın yaradılması müəyyən çətinliklərlə bağlı idi. Muğamlardan baş alıb gələn monodik təfəkkür tərzi xalqımızın musiqi zövqünü formalaşdırıb. Çoxsəsli musiqi isə onun təbiətinə yabançı idi. Xor mədəniyyətini musiqi sənətimizə daxil etmək, doğmalaşdırmaq səbr, təmkin və səriştə tələb edirdi. Bunun üçün uyğun musiqi janrları seçmək və xalqa yaxın olan nümunələrin köməyilə yeni sənətin zənginliklərinə nüfuz etmək lazım idi.

Köməyə yenə xalq mahnısı və muğam gəldi. Elə xalq mahnısı yoxdur və ola bilməz ki, bu və ya digər muğamla bağlı olmasın, ona əsaslanmamış olsun. Muğamların cümlə sonluqları muğamın kadensiyaları ilə, melodik qurumlarının başlanğıc frazaları, dəstgahın şöbələrinin ahəngilə bağlıdır. Üzeyir bəy xalq mahnılarını harmonizə edərkən özünün orijinal, bənzərsiz yolunu seçir. O yazırdı: "Təcrübə göstərmişdir ki, lad musiqimizin adi harmonizasiyası istər-istəməz kadansların tətbiq olunmasını tələb edir; kadanslar melodiyanı ya majora, ya da minora gətirib çıxarır. Bu zaman Azərbaycan musiqisini yaradan ladlar çox vaxt öz xüsusiyyətlərini itirir. Ona görə də mən mahnıları harmonizə edərkən adi dördsəsliyi deyil, kontrapunkt çoxsəsliyi və unison imitasiyaları tətbiq edirəm". (Ü.Hacıbəyov. İlk Azərbaycan xalq xoru. Əsərləri, II cild, s.270)

Bəstəkar Dövlət xor kollektivinin repertuarını yaradarkən nəinki xalq mahnılarının oranjimanından başlayır, lad daxilində solo improvizasiya, orqan punktu /dəm saxlamaq/ kimi milli ifa xüsusiyyətlərindən istifadə edir. Beləliklə, bəstəkar hər bir mahnının ritmik, melodik və başqa xüsusiyyətlərini öyrənir, şərti adlandırdığı harmonizasiyanı, Azərbaycan melosunun bütün incəliklərini, koloritini xorun ifasında dinləyicilərə çatdırmağa nail olur.

Odur ki, ilk "Komsomolçu qız", "Kolxoz mahnısı", "Partizan mahnısı", "Qızıl əsgər" xor nəğmələrini bəstələməzdən əvvəl Ü.Hacıbəyov böyük yaradıcılıq axtarışları aparmış, Azərbaycan xor sənətinin ilk cığırını salmış bəstəkarlıq məktəbimizin yolunu, yönünü müəyyən etmişdir.

Beləliklə, bərabər temperasiya sistemi xalq musiqi sənətimizə, eləcə də şifahi ənənəli professional musiqi mədəniyyətimizə daxil oldu. Bunun nəticəsi kimi muğam, aşıq musiqisi nümunələri, xalq mahnı və rəqslərimiz peşəkar bəstəkar yaradıcılığı üçün misilsiz mənbəyə, örnəyə çevrildi.

Peşəkar bəstəkar yaradıcılığının xalq örnəklərindən qidalanması kimi vacib xüsusiyyət müasir Azərbaycan professional musiqisini kiçik bir tarixi dövr ərzində dünyanın ən qabaqcıl məktəbləri səviyyəsinə ucaltdı.

30-cu illərin ikinci yarısından başlayaraq Azərbaycan bəstəkarlıq məktəbi opera, simfonik, oratorial-kantata janr və sahələrində misli görünməmiş uğurlar qazandılar. Müasir mövzuda yazılmış ilk "Nərgiz" operası /Müəllifi M.Maqomayevdir/, ilk klassik Azərbaycan operası "Koroğlu" /müəllifi Ü.Hacıbəyovdur/, xalq melodiyaları üzərində qurulmuş ilk milli balet "Qız qalası" /müəllifi Ə.Bədəlbəylidir/ dediklərimizə örnək ola bilər. Simfonik musiqi sahəsində diqqəti cəlb edən əsərlərdən Niyazinin "Zaqatala süitası"nı, Ə.Bədəlbəylinin "28 aprel" marşını, "Sovet hakimiyyəti uğrunda" poemasını, C.Hacıyevin "Azərbaycan süitası"nı və simfonik poemalarını, "simfoniyettaları"nı qeyd etmək olar.

*Aytac ELXANQIZI,*
*sənətşünaslıq namizədi*